# Mütaliə mədəniyyətdir

**Əli Şamil,**
**"Yol dəftərimdən..."**




Ömrünü türk xalqlarının folklor və ədəbiyyatının, dəyərli şəxsiyyətlərinin, eyni zamanda, dünyanın bütün nöqtələrində yaşayan irili-xırdalı bütün türksoylu xalqların problemli məsələlərinin araşdırılıb üzə çıxarılmasına sərf etmiş tədqiqatçı Əli Şamilin "Yol dəftərimdən: Quzey Qafqaz, Ukrayna, Moldova, Güney Koreya" kitabı onun oxucularla növbəti görüşüdür.

Bu görüş təkcə müəllifin gəzdiyi məkanlar, iştirak etdiyi elmi simpozium və tədbirlər, eləcə də səyahətlər haqqında təəssüratlar deyil, həm də türk yurdlarını öyrənmək və böyük bir sevgi ilə oxucuya təqdim etmək məramının təsdiqidir. Müəllif təqdimatında qeyd edir ki, ali məktəbin son kurslarından başlayaraq, türk xalqlarını daha yaxından tanımaq üçün onların yaşadıqları bölgələrə getdim, aydınları ilə görüşdüm. Bu görüşlər haqqında yazdıqlarım o vaxtlar redaksiyalar tərəfindın bəyənilmədi...

Əli Şamilin yol dəftəri vaxtilə sovet rejiminin qadağaları ucbatından "bəyənilməyən təəssüratlar"ın toplandığı bu kitab kimi də təqdim oluna bilər. Amma mütləq qeyd edilməlidir ki, bu kitab ömrü sürgünlərdən və təqiblərdən keçən azərbaycanlıların taleyindən heç nəyi ilə fərqlənməyən türksoylu xalqları daha yaxından və sevgi ilə tanımağa böyük imkanlar yaradır.

**Arif Rəhimoğlu,**
**"Dilimiz və tariximiz"**

Sovetlər Birliyinin süqutu ərəfəsində Azərbaycanda başlanmış milli mücadilənin ön sıralarında dayanan Arif Rəhimoğlu dilçi alim olsa da, daha çox ideoloji şahədə fəallıq göstərmişdir. O, "Siyasi təbliğatın əsasları", "İdeologiya" kimi əsərləri ilə milli məfkurə sahəsindəki boşluğu doldurmağa çalışmışdır. Hətta ömrünün sonuna kimi də silahdaşlarının bir çoxu bilmədi ki, Arif Rəhimoğlu mükəmməl bir dilçi və dil tarixçisi olmuşdur.




Ölümündən sonra nəşr edilmiş "Dilimiz və tariximiz" adlı kitab da bunu bir daha təsdiqləyir. "Elm və təhsil" nəşriyyatının çap etdiyi kitabda müəllifin müxtəlif illərdə yazdığı dil və dil tarixi, türk dillərinin söz varlığı, antropologiyası və türk xalqlarının mifologiyası haqqında məqalələr yer alır.

Arif Rəhimoğlu ömrünün son illərini İsveçin Göteborq şəhərində yaşamış və 2022-ci ilin aprelində orada vəfat etmişdir. O, 20 kitab və 250-dək elmi məqalə müəllifidir, əsərlərinin bir qismi Azərbaycanda nəşr edilmişdir.

***Əli ƏLİYEV,***
***"Xalq qəzeti"***

Xalq qəzeti .- 2023.- 2 iyun.- S.9.